**UOT: 73**

**Samirə Məmmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**e-mail: samiramamedova04@mail.ru**

# AĞAƏLİ İBRAHİMOV VƏ OSVALD ŞPENQLER

**Xülasə**: Bəşəriyyətin gələcəyi hər kəsə maraqlı olan sirli bir xəzinədir. Bu sirri açmaq yolunda saysız-hesabsız mülahizələr irəli sürülüb, rəssamlar tərəfindən incəsənət əsərləri yaradılıb. Hazırkı məqalədə XX əsr dünya fəlsəfəsində öz yeri olan Osvald Şpenqlerin "Avropanın qürubu" adlı əsərində irəli sürdüyü sivilizasiyanın sonu ideyasının Azərbaycanın Xalq rəssamı Ağaəli İbrahimovun "Sonun başlanğıcı" adlı əsərində öz əksini tapması fikri irəli sürülür. O.Şpenqlerin dünyanın sonunun 2000-ci illərdən etibarən gələcəyi fikri ilə "Sonun başlanğıcı" əsərinin rəssamın 2000-ci illər yaradıcılığında yer almasının heç də təsadüf olmadığı qənaətinə gəlinir.

**Açar sözlər**: Ağaəli İbrahimov, esxatologiya, axirət, apokalipsis, məhşər, Osvald Şpenqler, Avropanın qürubu.

Vasili Kandiskinin 1912-ci ildə yazdığı "İncəsənətdəki Ruhani ilə əlaqəli" (О духовном в искусстве) kitabında dediyi kimi, hər bir sənət əsəri öz dövrünün övladıdır. Məhz bu mövqedən yanaşaraq müasiri olduğumuz dövrün fəlsəfi fikirlərinə nəzər salıb incəsənət xadimlərinin yaradıcılığında bunların necə öz əksini tapdığını araşdırmaq lazımdır. Müasir dövr rəssamların yaradıcılığına diqqət yetirdikdə XX əsr dünya nəzəriyyələrinin təsirini açıq-aydın görə bilirik. Azərbaycan rəssamlarının yaradıcılıqları bu axından heç də geri qalmır.

Bəşər övladı yaradılışdan gələcəyi öyrənmək həvəsindədir. Hər kəsi özünün və ümumilikdə bəşəriyyətin taleyi maraqlandırır. Bu axtarışın nəticəsində çoxlu sayda nağıllar, miflər, fəlsəfi fikirlər və elmi iddialar formalaşıb və hələ də davam etməkdədir. Qədim mayyaların, eləcə də qədim şumerlərin "apokalipsis" barədə öncədən xəbər vermələrinin, istər dünyəvi, istərsə də səmavi dinlərdə dünyanın sonuna dair məsələlərin öz əksini tapmasının, orta əsrlərdə xristian Avropasının ölümdən sonrakı həyat üçün yaşamasının, indiki dövrdə isə ABŞ-ın Aeronavtika və Kosmos təriqəti üzrə Milli idarəsi olan NASA-nın araşdırmala-

rının kökündə gələcəyə dair proqnozların axtarışı dayanır (1). Hətta ilahiyyatda və fəlsəfədə bunu xüsusi bir bölüm olan esxatologiya daha dərindən araşdırır. Ən qədim zamanlardan indiyədək davam edən "bəşəriyyətin sonunu nə gözləyir?" sualının cavabı bir çox filosofların konsepsiyalarının özəyi olduğu kimi, çox sayda rəssamların da yaradıcılığının mövzu obyekti olub. Bu baxımdan alman tarixçi filosofu və publisisti Osvald Şpenqlerin "Avropanın qürubu" əsəri ilə Azərbaycan xalq rəssamı, əməkdar incəsənət xadimi, professor Ağaəli İbrahimovun 2000-ci illərdə çəkdiyi "Sonun başlanğıcı" (şəkil 1) tablosunu paralel olaraq təhlil etməkdə fayda var.

Özünün "Avropanın qürubu" əsərində dünya tarixini əslində mədəniyyətlərin tarixi kimi öyrənilməsini təklif edən O.Şpenqler, bütün mədəni-tarixi tip kimi formalaşan xalqların sivilizasiyaya doğru inkişaf yolunda öz mədəniyyətlərini yaratdıqlarını söyləyir. İnkişafın təkanverici qüvvəsini isə o, ölüm qorxusunda görürdü. Ölməkdən qorxu ölümsüzlüyü kəşf etməyə vadar edir. Bunun üçün isə, ilk növbədə, ölümün nə demək olduğunu anlamaq lazımdır. Bu suala cavab axtarışı mədəniyyəti inkişaf etdirir. Bu inkişaf isə öz növbəsində müxtəlif pillələrdən keçir. Şpenqlerin fikrincə bütün mədəniyyətlər sivilizasiyaya çevrilməzdən öncə eyni daxili inkişaf siklini yaşayırlar. Belə ki, mədəniyyətlər ilk olaraq mif-simvolik düşüncələrlə başlayır. Bu dönəmdə dünya haqqında təsəvvürləri primitiv fikirlərlə izah etməyə cəhd edirlər. İkinci mərhələni mədəniyyətin formalaşdığı zaman kimi dəyərləndirir. Əgər ilk dövrlərdə ibtidai miflər, nağıllar yaradılırdısa, ikinci pillədə bunlar bitkin forma alırlar. Müəyyən zaman keçdikdən sonra insanlar dinlərini formalaşdırmağa başlayırlar. O, bu dönəmi mədəniyyətin formalaşmasının ən əsas və yüksək mərhələsi kimi qiymətləndirir. Çünki məhz bu mərhələdə dünyanın irrasional və emosional dərk edilməsi ön plana keçir və yüksək mədəniyyət nümunələri yaradılır. Maddi və mənəvi mədəniyyət get-gedə inkişaf edir və daha sonra isə növbəti mərhələ olan sivilizasiya ilə əvəz olunur. Sivilizasiya elə bir dönəmdir ki, maddiyyat mənəviyyatı üstələyir və rasionalizm ön plana keçir (2). İnsanlar məntiqi düşüncələrə daha çox üstünlük verirlər. Hər bir hadisədə səbəb-nəticə əlaqəsi axtarılır. Mədəniyyətdə durğunluq yaranmağa başlayır və nəticə etibarilə məhv olur. Şpenqlerin fikrincə dünyada varlığını itirmiş, hal-hazırda mövcud olan və hətta əgər nə vaxtsa gələcəkdə də yeni sivilizasiya yaranacaqsa, o da bu mərhələlərdən keçəcəkdir.

O, "Avropanın qürubu" əsərində mədəniyyətin formalaşma mərhələsini 300 il, yüksək mədəniyyət mərhələsini 400 il, sivilizasiya mərhələsini isə 300 il müddətində baş verdiyini yazmaqla hər bir mədəniyyətin cəmi 1000 il mövcud olduğunu, daha sonra isə məhv olduğunu söyləyir. O, bu kitabın birinci bölümündə göstərdiyi cədvəldə Hindistan mədəniyyəti, Klassik mədəniyyət (Antik Yunan) və Ərəb mədəniyyəti ilə hal hazırda sivilizasiya dövrünü yaşayan Qərb mədəniyyətini paralellərlə izah edir (3). O.Şpenqler hesab edir ki, müasir Qərb mədəniyyəti sivilizasiya dönəmindədir, çünki bu mədəniyyət bizim eranın 900-1200-cü illərindən formalaşmağa başlayıb və məhvi 2000-ci ildən sonra baş verməyə başlayacaqdır. 2000-ci ildən sonra yaranacaq mədəniyyətin isə artıq bizim öyrəşdiyimiz Qərb mədəniyyəti deyil, tamamilə yeni, başqa bir sivilizasiya olacağını demişdi. Bu əsərin rezonansı o qədər güclü olmuşdur ki, hər kəs 2000-ci ildə dünyanın sonunun gələcəyinə və kainatın sözün həqiqi mənasında məhv olacağına inanmışdı.

Azərbaycan təsviri sənətində XX əsrin ortalarından başlayaraq bir çox rəssamların fəaliyyətlərində dünya fəlsəfi ideyaların və rəssamlığının təsirlərini seyr edə bilirik. Belə rəssamlardan biri də öz üslubu ilə seçilən görkəmli Azərbaycan rəssamı Ağaəli İbrahimovdur. Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyevin dediyi kimi, Ağaəli İbrahimov elə bir rəssamdır ki, o daima milli və bəşəri dəyərlərə obrazlı, daha dəqiq desək, fəlsəfi-psixoloji tutum verən, görünənləri "sirr qatına" bələdiyindən həmin əsərlər bir qayda olaraq tamaşaçısını dialoqa çəkmək gücündədir (4). Maraqlıdır ki, yaradıcılığının 2000-ci illər dönəmində A.İbrahimov "Sonun başlanğıcı" adlı tablosunu çəkir. Süjetli kompozisiya şəklində çəkilmiş bu rəsm əsəri elə ilk baxışdan insanı ölümdən sonrakı dünya haqqında düşünməyə vadar edir. Çoxfiqurlu əsər olan bu rəsmdə işıq və kölgədən çox effektiv şəkildə istifadə olunub. Əsərin ağ-qara rənglərdən istifadə olunaraq çəkilməsi insanda vahimə hissini artırır. Tablonun tam mərkəzində üzü görünməyən ağ rəngli varlıq sanki insanları sorğu-suala çəkərək yer üzünün qaranlığından aydınlı dünyaya aparır. Rəsmin yuxarı hissəsində təsvir olunan qanadlı varlıqlar isə insanların yer üzərindəki əməllərinin şahidi imiş kimi görüntü yaradırlar. Rəssam əsərdə yer alan digər personajların üzlərində düşüncə, təəccüb, qorxu, təəssüf, yalvarış, maraq, peşmanlıq kimi ifadələri böyük ustalıqla təsvir edib. Bu tabloda yer almış üzü örtülü təsvir olunan hamilə qadını isə mövzunun kulminasiya nöqtəsi kimi dəyərləndirmək olar. Buradakı qadının üzü

örtülü olması bir tərəfdən milli ənənədən irəli gəlirsə, digər tərəfdən semiotik olaraq yeni başlanğıcın hələ də sirr olaraq qaldığının göstəricisi olduğunu deyə bilərik. Hamiləliyin yeni həyatın başlanğıcı olduğu anlamında təsvir edən Ağaəli İbrahimov simvolik olaraq digər dünyada da həyatın davam edəcəyini, lakin bu dünyanın necə olacağının sirli olduğunu bu obraz vasitəsilə ötürmək istəyib. Bu əsərə baxdıqda biz sanki Şpenqlerin yazdığı 2000-ci illərdən sonra hazırkı Qərb mədəniyyətinin qürub edəcəyini və bizə məlum olmayan yeni mədəniyyət ilə əvəz olunacağı ideyasının obrazlı təsvirini görə bilirik.

Beləliklə, müasir dövr dünya fəlsəfi-kulturoloji ideyaların Azərbaycan rəssamlığına təsiri, milli ənənələrlə sintez edərək maraqlı əsərlərin ərsəyə gəlməsinə səbəb olur. Azərbaycanın Xalq rəssamı Ağaəli İbrahimovun "Sonun başlanğıcı" əsərinin alman tarixçi-filosofu Osvald Şpenqlerin "Avropanın qürubu" əsərində irəli sürdüyü "sivilizasiyanın sonu" fikrinin rezonansından ilhamlanaraq çəkdiyi qənaətinə gəlmək olar.

**Ədəbiyyat siyahısı:**

1 - https://antilogicalism.com/wp-content/uploads/2017/07/decline_of_the_west.pdf

2 - M.Manafova, N.T.Əfəndiyeva, S.A.Şahhüseynova - Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı: Sabah nəşriyyatı. 2010

3 - Telman Orucov "Dünyanın gizli tarixinin mükəmməl tədqiqat təşəbbüsü" Milli Virtual Kitabxananın təqdimatında. 2011

4 - https://medeniyyet.az/page/news/55914/.html

**Самира Маммедова**

## АГАЛИ ИБРАГИМОВ И ОСВАЛЬД ШПЕНГЛЕР

**Резюме**: Будущее человечества — это таинственное сокровище, интересное каждому. Для разгадки этой тайны было выдвинуто бесчисленное количество идеи, и художники создали произведения искусства. В данной статье делается вывод о том, что идея конца цивилизации, выдвинутая Освальдом Шпенглером в его произведении «Закат Европы», находящая свое место в мировой философии XX века, нашла свое отражение в творчестве народного художника Азербайджана Агали Ибрагимов «Начало кон-

ца». Неслучайно А.Ибрагимов написал это произведение в 2000-х годах, так как на него повлиял резонанс, созданный мыслью О. Шпенглера о том, что конец света наступит в 2000-х годах.

**Ключевые слова:** Агали Ибрагимов, эсхатология, загробная жизнь, апокалипсис, Освальд Шпенглер, закат Европы.

**Samira Mammadova**

## AGALI IBRAGIMOV AND OSWALD SPENGLER

**Summary**: The future of humanity is a mysterious treasure, that has always been interesting to everyone. Countless ideas have been written and innumerous artists have created works of art to unravel this mystery. This article concludes that the idea of the end of civilization put forward by Oswald Spengler in his work "The Decline of Europe", which has a special place in the world philosophy of the twentieth century, is reflected in the People's Artist of Azerbaijan Agali Ibrahimov's work – "The Beginning of the End". It is no coincidence that Agali Ibrahimov wrote this work in the 2000s. Because it was influenced by the resonance created by O. Spengler's idea that the end of the world will come starting from the 2000s.

**Key words:** Agali Ibragimov, eschatology, afterlife, apocalypse, Oswald Spengler, Decline of Europe.



**Ağaəli İbrahimov. "Sonun başlanğıcı"**

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**